# Uşaqların qəhrəmanı

*Sözün doğrusu, bu məqaləni yazmağa başlayanda bir qədər tərəddüd elədim. Nə yazım, necə yazım? Kaş ki, dünyanın ən təsirli, ən gözəl sözünü biləydim, onun ünvanına söyləyəydim və həm də, sağlığında söyləyəydim.*

*O, çoxlarının sevimlisi idi. Uşaqlarımızın və öz uşaqları ilə uşaqlaşan böyüklərimizin. Bəlkə də, onun verilişləri hər hansı ağır təbiətli, ciddi simalı bir kəsi cəlb etmirdi. Amma yəqin ki, təsvir etdiyimiz xarakterdə olan insan da televizorun qarşısında oturub, kanalları çevirən zaman birdən onun uşaq kimi məsum simasını görəndə həmin insanda da təbəssüm yaranırdı. Çünki o, yaşından, xarakterindən asılı olmayaraq hər bir insana müsbət enerji verməyi bacarırdı.*



***Hətta özü kədərli olanda belə, onun simasında izah edilməsi çətin olan şirin bir gülüş var idi. Bu sanki, eyni zamanda, həm ağlayan, həm gülən insanın təbəssümü idi. Ona baxanda adam heç bir kədərin insanı məğlub edəcək dərəcədə güclü olacağına inanmırdı. Sadə, səmimi idi. Zənnimcə, onu uzaqdan, yaxından tanıyan hər bir insanda belə fikir yaradırdı: – «yaxşı insandır.» O, balalarımızın sevimlisi – Ələkbər əmi idi. Sözün əsl mənasında onların əmisi idi. Bəlkə, əmidən də yaxın, mehriban. Bəli, o ondan yaşda qat-qat böyük olan adamların belə «Ələkbər əmi» deyə xitab etdikləri bir insan idi.***

Bu məqaləni yazanda düşündüm ki, onun adının qarşısında heç bir şablon, pafoslu təyin işlətməyəcəyəm. Ümumiyyətlə, bir insanı, xüsusən ölümündən sonra yerə-göyə sığışdıra bilməyəcək dərəcədə tərifləmək nəyə lazımdır.

Həm də axı, onsuz da Ələkbər əminin (Hüseynov) bu mübaliğəli ifadələrə ehtiyacı yox idi. Bayaq qeyd etdiyimiz kimi sadə idi. Quru şöhrətin, bu şöhrəti gətirən qarmaqarışıq yolların ardınca qaçmırdı. Bizim – yəni, bugünkü gənclərin uşaqlığında qoruyub saxladığı bir qəhrəman idi. Bəkə də o, nağıllardan gəlmişdi. Öz şirin, şəkər balalarını qəmlənməyə qoymamaq, onlara yalnız sevinc və gülüş bəxş etmək üçün bu dünyaya təşrif buyurmuşdu.

Şəxsən özüm ilk dəfə onu milli televiziyada yayımlanan uşaq proqramında gördüyümü xatırlayıram. Bəlkə də, bir çoxlarında qibtə oyatmışdı, uşaqlarla əylənən, onlarla sözün əsl mənasında uşaqlaşan bu böyük insan. Əlbəttə, fikrimdə yanılmıram. Bəzən biz də belə olmaq istəyirik. Yaşımızın neçəliyindən asılı olmayaraq bütün stresi atmağa, uşaq kimi dəcəllik etməyə, çılğıncasına əylənməyə, istədiyimiz zaman mahnı oxumağa, rəqs etməyə can atırıq. Amma həmişə nail oluruqmu buna? Yoxsa yenicə coşub-daşmış ürəyimizə deyirik: «sakit ol, sən artıq böyümüsən.»

Bəlkə ona görə ki, digər aktyorlardan fərqli xüsusiyyətlərə malik idi – uşaqların aktyoru idi. Bəlkə də, onu həddindən artıq, dramatik, faciəvi rolda təsəvvür etmək bizə qəribə görünərdi. Yəqin ki, o belə rolları da çox ustalıqla ifa edərdi. Amma bu bizim təsəvvürümüzə yad idi. O, sanki gülmək üçün bu dünyaya gəlmişdi.

Bu gözəl aktyorun zərif səsi var idi. Xatirimə onun Q.Əlili ilə birlikdə K.Həsənlinin aparıcılıq etdiyi «Musiqili meydan» verilişindəki çıxışı gəlir. O qalib olmuşdu. Anamın o zamankı fikirləri də yadımdadır. Anam demişdi ki, «məncə, ona ən çox səsi uşaqlar göndərib.» Yəqin ki. Çünki o, uşaqların qəlbində özünəməxsus bir taxt qurmuşdu. Və uşaqların qəlbindəki bu yeri başqa heç kəs əvəz edə bilməzdi.

Yadıma Ələkbər əminin verilişlərin birində söylədiyi fikir düşdü. Zarafatyana deyilmişdi, amma burada böyük həqiqət vardı. Fikir təqribən bundan ibarət idi. «Harada olmasından, hansı çətinliyə düşməsindən asılı olmayaraq, balaca dostları həmişə öz Ələkbər əmilərini xilas edəcəklər.» O, buna inanırdı. Təəssüf ki, ölüm anında balaca dostları onu xilas edə biləcək bir gücə malik deyildilər.

Məqaləmdə aktyorun yaradıcılığı haqqında hər hansı tədqiqat aparmaq, onun oynadığı rolları təhlil etmək fikrində deyiləm. Fikrimi onun kukla teatrındakı fəaliyyətinə yönəltmək istəyirəm. Yəni, bir insan kuklaları, cansız əşyaları bu qədər sevərdimi? O, kuklalarla da dost idi, yəni bizimçün onlar cansız idi, onun üçün kuklalar da canlı idi. Kuklalarla ünsiyyətdə olduğu vaxt çöhrəsi nura boyanardı. O, kuklalarla danışırdı, onlara həyat verirdi.

İndi dəqiq aydınlaşdıra bilmirəm ki, Ələkbər əmi (Hüseynov) sağlığında onun kimi sənətkarın layiq olduğu qiyməti aldı, ya yox. Amma bilirəm ki, əvəzsiz bir sərvət qazandı. Böyük bir kütlənin – özü də saf niyyətli, təmiz ürəkli bir kütlənin – uşaqların sevgisini. Həyatı boyu günahsız yavrulara işlədi. Bununla yəqin ki, böyük savab qazandı, onlarla özü də məsumlaşdı və öz paklığından onlara da bəxş etdi.

Öz hissimə güvənərək tam əminliklə deyə bilərəm ki, Ələkbər əmi uşaqları sevirdi. Özü də böyük məhəbbətlə sevirdi.

Bu sənət meydanından çox aktyorlar, sənətçilər keçir. Zaman keçdikcə simalar yeniləşir. Biri gedir, digəri gəlir. Lakin bəziləri sənət tarixinə öz kiçik adlarını böyük hərflərlə yazırlar. Eynilə Ələkbər Hüseynov kimi.

Hər bir işdə olduğu kimi sənət aləmində də fədakarlıq çox önəmlidir. Məgər hamı fədakarlıq edə, öz şəxsi mənafeyindən kənara çıxa bilirmi? Əlbəttə ki, yox. Amma Ələkbər əmi sənətinin fədaisi idi.

Bəzən bizə elə gəlir ki, bəzi insanlar ölməməlidirlər, ya da heç olmasa, elə bir zaman ölməlidirlər ki, onların varlığı özləri də daxil olmaqla hamıya əzab versin. Onu da belə düşünürdük. Gözləyirdik ki, hələ uzun illər yaşayacaq və hər nəsil yetişən uşaqlarımıza gözəl örnək olacaqdır. Amma olmadı. Tanrı onu bizə çox gördü. Yəqin ki, bu gün bir çox uşaqların gözü yaşlıdır. Çünki onlar öz qəhrəmanlarını itirdilər – gücünə, xeyirxahlığına inandıqları bir qəhrəmanı. İndi uşaqların çətin, kədərli anlarında köməyə çağırdıqları o böyük yoxdur. Mən isə onların adından demək istəyərdim: «Allah sizə rəhmət eləsin, Ələkbər əmi».

**Günel ELXANQIZI**